*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 209-214* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.209*

## Təsəvvüf mövzusuna Əbdülbaqi Gölpınarlı prizmasından baxış

**Nəsrəddin Musayev**
Filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-1164-2415

**Annotasiya.** Məqalədə çoxşaxəli yaradıcılığa, ədəbi-tarixi hadisələrə orijinal baxış mövqeyinə və özünəməxsus yaradıcılıq manerasına malik olan Əbdülbaqi Gölpınarlının təsəvvüfə dair görüşləri onun bu sahədə yazdığı əsərlər prizmasında təhlil olunub. Müəyyən edilib ki, tədqiqatçı təsəvvüf mövzusunu yeni araşdırma kontekstində təhlil etməyə nail olub. Onun təsəvvüfə dair yazdığı əsərləri türkiyəli tədqiqatçılar tərəfindən ən mötəbər mənbələr kimi qəbul edilir.
Məqalədə həm də Ə.Gölpınarlını təsəvvüf mövzusunda axtarışlara sövq edən səbəblər təhlil olunmuş, türk xalqları ədəbiyyatının tədqiqatçıları arasında bu mövzuda yazdığı əsərlərin mükəmməl baza olduğu təsdiqlənmiş, onun bir araşdırmaçı kimi potensialı ilə bağlı müəyyən qənaətlərə gəlinmişdir. Gölpınarlının tədqiqatları əsasında müəyyən edilmişdir ki, təsəvvüf və irfan bir çərçivənin hüdudları daxilində yerləşən bütöv və vahid bir təlim olsa da, eyni şey deyildir. Bunlar arasında müəyyən fərqlər mövcuddur. Təsəvvüf həmin təlimin praktik cəhəti, irfan isə nəzəri tərəfidir. Hər bir elmin həm təcrübəvi, həm də nəzəri tərəfləri olduğu kimi, sufilikdə də təsəvvüf əməli fəaliyyətlə, irfan isə təfəkkür və nəzəri müddəalarla bağlıdır.
**Açar sözlər:** Əbdülbaqi Gölpınarlı, elmi və bədii düşüncə, təsəvvüf tarixi, təsəvvüf ədəbiyyatı

**Məqalə tarixçəsi:** göndərilib – 02.09.2024; qəbul edilib – 13.09.2024

## A look at the subject of Sufism from the perspective of Abdulbagi Golpinarli

**Nasraddin Musayev**
Doctor of Philosophy in Philology
https://orcid.org/0000-0003-1164-2415

**Abstract.** In the article, the views of Abdulbagi Golpinarli on Sufism, who possesses a multifaceted creativity, an original perspective on literary-historical events, and a distinctive creative manner, are analyzed through the prism of his works in this field. It has been determined that the researcher has succeeded in analyzing the subject of Sufism in the context of new research. His works on Sufism are considered the most authoritative sources by Turkish researchers.
The article also analyzes the reasons that led Golpinarli to explore the topic of Sufism, confirms that his works on this subject provide an excellent foundation among researchers of Turkish literature, and arrives at certain conclusions about his potential as a researcher. Based on Golpinarli's research, it has been determined that although Sufism and Irfan are a complete and unified doctrine within a certain framework, they are not the same thing. There are certain differences between them. Sufism is the practical aspect of the doctrine, while Irfan is its theoretical side. Just as every science has both practical and theoretical aspects, in Sufism, Sufism is related to practical activity, while Irfan is related to thought and theoretical propositions.
**Keywords:** Abdulbagi Golpinarli, scientific and artistic thought, the history of Sufism, Sufi literature

**Article history:** received – 02.09.2024; accepted − 13.09.2024

## Giriş / *Introduction*

Təsəvvüflə bağlı Azərbaycan ədəbiyyatşünaslığında çox az araşdırma aparılsa da, Türkiyədə bu problemə geniş yer verilmişdir. Azərbaycanda bu mövzunu daha çox tarixçilər və filosoflar tədqiq etmişlər. Türkiyədə isə təsəvvüfün tarixi, mahiyyəti, məzmunu, əsas anlayışları, mərhələləri, görkəmli nümayəndələri ilə bağlı Mahir İzin "Təsəvvüf" (1969), Nəcib Fazil Qısakürəkin "Qərb təfəkkürü və İslam təsəvvüfü" (1982), Mustafa Karanın "Təsəvvüf və təriqətlər tarixi" (1985), Yaşar Nuri Öztürkün "Təsəvvüfün ruhu və təriqətlər" (1988), Süleyman Atəşin "İslam təsəvvüfü" (1992), Səlcuq Əraydının "Təsəvvüf və təriqətlər" (1994), Hülya Küçükün "Təsəvvüf tarixinə giriş" (1997), Süleyman Uludağın "Təsəvvüf" (1999) adlı kitabları və çox sayda başqa əsərlər məlumdur. Bu müəlliflərin təsəvvüflə bağlı araşdırmalarında bəhrələndiyi əsas mənbələrdən biri də Əbdülbaqi Gölpınarlı yaradıcılığıdır.

Təsəvvüf, təriqət və klassik türk ədəbiyyatının ən böyük tədqiqatçılarından biri olan orijinal əsərlər müəllifi Ə.Gölpınarlının bu problemlə bağlı tədqiqatlarını Türkiyə ədəbiyyatşünaslığında yeni mərhələ hesab etmək olar. O, problemi həm nəzəri cəhətdən, həm də ayrı-ayrı sənətkarların yaradıcılığı kontekstində təhlilə cəlb edir. Tədqiqatçı ciddi *"bir ədəbiyyat tarixçisidir. Universitetdə həm də təsəvvüf tarixini tədris etmiş, bu səbəblə ədəbiyyat tarixi və təsəvvüflə bağlı bir çox əsərlər yazmışdır"* [1, s.104].

## Əsas hissə / *Main Part*

Ə.Gölpınarlı atasından öyrəndiyi təsəvvüf bilgisinin maddi-mənəvi havası ilə böyümüş, mövləvilik ədəbini dövrün böyük simalarından olan İbrahim Zuhuridən öyrənmişdi. Yaşam tərzi və həyatının bir parçası saydığı mövləvilikdən və şiə inancından ömrünün sonuna qədər ayrılmamışdır. O, zamanının tanınmış elm adamlarının bilik və təcrübəsindən yararlanaraq, İran mifologiyası ilə əlaqədar zəngin təcrübə toplamış, bu isə heç şübhəsiz, onun elmi fəaliyyətində mühüm rol oynamışdır. Ona görə də onun məslək həyatında Mövlana, mövləvilik, təsəvvüf və məzhəblər üzərindəki çalışmaları xüsusi önəm daşıyır. Bu araşdırmalarında tarixi hadisələrin düşüncə və ədəbiyyat üzərindəki təsirini göstərərək, o, yunan fəlsəfəsi ilə müqayisədə İslam fəlsəfəsinə daha böyük dəyər verir.

Ə.Gölpınarlının çoxşaxəli tədqiqatçılıq manerasında təsəvvüfə dair əsərləri, o cümlədən "Hürufilik mətinləri kataloqu", "Mövlanadan sonra Mövləvilik", "Mövləvi ədəb və ərkanı", "Ələvi-Bəktaşi nəfəsləri", "100 sualda təsəvvüf", "100 sualda Türkiyədə məzhəblər və təriqətlər", "Təsəvvüfdən dilimizə keçən deyimlər və atalar sözləri", "Təsəvvüf Məsələləri – Suallar və Cavablarla" və "Türk təsəvvüf şiiri antologiyası" xüsusi yer tutur. O, "100 sualda təsəvvüf" kitabında təsəvvüf problemlərinə aydınlıq gətirir, onun tarixini və mahiyyətini, dövrün həyat tərzini bütün yönləri ilə araşdırır. Əsər ilk dəfə 1969-cu ildə, sonralar isə müxtəlif illərdə dörd dəfə çapdan çıxmışdır. Ə.Gölpınarlının təsəvvüfün, təriqətlərin və məzhəblərin tarixi ilə bağlı əsər yazmağın çətin və məsuliyyətli olduğunu bildiyi halda, bu mövzulara müraciət etməsi müsbət hadisədir.

Kitabdakı suallara və cavablara diqqət yetirməklə, doğrudan da, təsəvvüflə bağlı bilmədiyimiz və maraq doğuran bir çox suallara cavab tapmaq mümkündür. Cavabların ayələrlə, hədislərlə və mövzu ilə əlaqədar tarixi qaynaqlarla əsaslandırılması əsərin elmi əhəmiyyətini artırır. Alim təsəvvüfü bir istiqamətdə təhlil etmir, onun musiqi ilə, tarixlə, xalqla, dövlətlə, sufilərlə, təriqətlərlə olan əlaqələrini göstərməyə çalışır. Türkiyəli tədqiqatçıların qənaətinə görə, Ə.Gölpınarlı bu əsəri yazmaqla türk elmi-ədəbi mühitində özünə qədər olmayan bir işi uğurla sona çatdırmışdır. Bu əsər islam dinini, türk düşüncə tarixini, məzhəblərin Türkiyədəki inkişafını, onların türklərin sosial-iqtisadi həyatındakı rolunu, təriqətlərin insani, yaxud təb-

liğati əhəmiyyətini dərk etməkdə ən əhəmiyyətli və etibarlı mənbədir.

Təsəvvüf və onun təmsilçiləri ilə bağlı maraq doğuran bütün suallara “100 sualda təsəvvüf” adlı əsərdə cavab tapmaq mümkündür. O, təsəvvüfü dinin əsası hesab etmir və bu münasibətlə yazır: *“Nə təsəvvüf dinin əsasıdır, nə də dində belə bir zövq yoxdur, dedim”* [7, s.5].

Təsəvvüflə bağlı yazılan bir çox əsərlərdə “sufi” sözünün izahı və etimologiyası ilə əlaqədar ətraflı bəhs edilsə də, onun termin kimi necə yarandığına dair məlumatlar azdır. Bu mövzuda tədqiqatlar aparan sufi müəlliflərdən Əbu Nuaym əl-İsfahani təsəvvüfün “səfa” və “vəfa” sözlərinin birləşməsindən yarandığını, zahidlərin çöldə yedikləri sufanə bitkisindən, özlərini Kəbənin xidmətçisi elan etmiş Sufə qəbiləsinin adından, yaxud da ucuz olduğu üçün qürur gətirməyən sufdan (yun paltar) yarandığı ehtimal olunur.

Məhəmməd peyğəmbərin müqəddəs kəlamlarını eşidənlərə səhabə, səhabənin söhbətindəki iştirakçılara tabiun, onların söhbətini eşidənlərə təbəut-tabiun deyilmişdir. Sonralar isə dinin hökmlərinə ciddi riayət edənlərə abid və zahid, müxtəlif dövrlərdə bidətlərə *(dində olmayanı qanun kimi dinə daxil etmək – N.M.)* qarşı çıxanların hər zaman Allahla birlikdə olma və qəflətdən çəkinmək səylərinə VIII əsrdən etibarən təsəvvüf deyilmişdir. Digər tərəfdən, bir təvazökarlıq simvolu olan yun paltar geyinmələri səbəbi ilə abid və zahidlərin sufi olaraq qəbul olunmağa başlandığı, onların həyat tərzini ifadə etmək üçün “suf” sözündən “tasavvefe” (yun geyindi) feilinin yarandığı, təsəvvüf təbirinin bu feilin məsdəri kimi istifadə olunduğu irəli sürülmüş, bu yanaşma həm məna, həm də dilçilik nöqteyi-nəzərdən daha məqsədəuyğun hesab olunmuşdur. Ə.Gölpınarlı da təsəvvüfdən türk dilinə keçən deyimlər və atalar sözləri ilə bağlı yazdığı əsəri ona edilən çoxsaylı müraciətlər əsasında qələmə almış, *“unudulmuş, ya da hələ işlədilməkdə olan sözlərin məna və izahını verməyə”* [8, s.15] çalışmışdır.

Təsəvvüfün mənəvi həyat tərzi olması, qulun Allahla və aləmlərlə *(lahut aləmi, cəbərut aləmi, mələküt aləmi və s. – N.M.)* bağlılığı, qəlbin təmizliyi, gözəl əxlaq, nəfsə hakim olmaqla əlaqəli çox sayda tərifi məlumdur. Məhəmməd ibn Vasiyə görə, təsəvvüf ağıla, nəfsə hakim olmaq, qənaətcillik və təvazökarlıqdır. Cüneyd Bağdadi təsəvvüfün dünya malına tamah salmamaq, aza qane olmaq, itaət və ibadətə üstünlük vermək, maddiyyatı deyil, mənəviyyatı seçmək kimi mövzuları əhatə etdiyini bildirir. Bəzi sufilər isə təsəvvüfün mahiyyətini müxtəlif dini-fəlsəfi mərtəbələrlə izah etməyə çalışıblar. Elm mərtəbəsində təsəvvüf qəlbin pislikdən təmizlənməsi, yaradılanlara qarşı xoş münasibətdə olmaq, şəriət məsələlərində peyğəmbərlərin dediklərinə əməl etmək, həqiqət mərtəbəsində isə mülkün yoxluğu, insanlara ibadətin əhəmiyyətini başa salmaq, Allaha çatmaq üçün çalışmaq, beləliklə, onlara sufi sifəti qazandırmaqdır. Cüneyd Bağdadi təsəvvüfü insanın daxilində olan sifət və vəsf adlandırmış, “Bu, insanın, yoxsa Haqqınmı sifətidir” sualına *“həqiqətdə haqqın, görünüşdə insanın”* cavabını vermişdir [10, s.16].

Ə.Gölpınarlı da təsəvvüfü zahirdə və batində şəriətin ədəblərinə əməl etmək kimi qiymətləndirir. Bu fikirdə şəriət ədəbləri ilahi əxlaq kimi nəzərdə tutulduğundan, təsəvvüf bu cür əxlaqla tərbiyə olunmaq kimi qəbul edilməlidir. Təsəvvüf düşüncəsinin təməlində Allah sevgisi və Allah qorxusu dayanır. Allah qorxusu, eyni zamanda Allahı sevməkdən qaynaqlandığı üçün bu anlayışlar bir-birini tamamlayır. Yaradanın yaratdıqlarını sevməsinin təminatı olan tövbə, səbir, təqva, ehsan, ədalət, şükranlıq kimi xüsusiyyətlər təsəvvüf əhli tərəfindən seyrisüluk olaraq ifadə olunan və bir mürşidi-kamil tərəfindən tətbiq edilən tərbiyə dövründə reallaşdırılmağa çalışılır ki, nəticədə, Allahla insanlar arasında mənəvi bağlılıq yaranır. Qəlbi mənəvi xəstəliklərdən qurtarmaq və nəfsi pislikdən qorumaq məqsədi daşıyan bu tərbiyə zamanı müridlərdən fərz ibadətlərinin savabını təbliğ etmək tələb olunur. Təsəvvüfün ilk dövrlərindən etibarən nəfsə və şeytani hisslərə uymayan sufilər bu düşüncədə olmayanlardan uzaq olmağı Tanrı dərgahına çatmağın ən düzgün yolu hesab etmiş, mənəvi qardaşlıq mövqeyində olduqları insanlarla bir yerdə dini ayinləri icra etmək məqsədilə VIII əsrdən etibarən xanəgahlar qurmuşdular. Sonrakı dövrlərdə dərgah, təkkə, zaviyə də adlandırılan bu təsəvvüf mərkəzlərində qaydalar müəyyənləşdirilmişdir.

Türk xalqlarının bədii düşüncəsindəki məzhəb və təriqətlərlə bağlı əhəmiyyətli tədqiqatlar aparan Ə.Gölpınarlı qarşısına *"etibarlı mənbələrə əsaslanmaq, onları təhlil etmək, tənqid etmək, qiymətləndirmək və hökmlərdə tərəfsiz qalmaq"* [5, s.5] kimi çox ciddi vəzifə qoymuş və onu uğurla yerinə yetirmişdir. Məlumdur ki, təsəvvüfün ilk qaynaqları ərəb dilində yazılmış, Fəridəddin Əttar, Mövlana Şəbüstəri, Fəxrəddin İraqi və başqalarının bəzi əsərlərini fars dilində yazması ilə bu dil də təsəvvüf dili olmuşdur. Ə.Yəsəvinin təsəvvüf anlayışını türk dilində ifadə etməsi, onun bir çox xəlifəsinin bu işi davam etdirməsi, habelə Y.Əmrə kimi mütəsəvvif şairin əsərləri türk dilinin də təsəvvüf dili kimi şöhrət qazanması ilə nəticələndi.

Ə.Gölpınarlı təsəvvüfü təkcə tədqiq etmir, həm də təməl əsaslarını təsnifatlandırır. Bu təsnifata görə, onun təməl əsaslarında təkkə əhli durur. Onlar fərqli geyim, qurşaq, mərasim kimi şeylərlə xalqdan ayrılmağı qəbul edənlər idi. Dərviş adlandırılan təsəvvüf əhlinin toplandıqları, zikr etdikləri, özlərinin qərarlaşdırdığı adətləri yerinə yetirdikləri məkana təkkə, bəzən də dərgah deyilir. "Dərviş dərvişi təkkədə, hacı isə hacını Məkkədə tapar" atalar sözü də bu məkanın nə qədər önəmli yerə sahib olduğunu göstərir. Təriqət mənsublarına məxsus olan və o təriqətin böyüklərindən birinin şeyx olduğu, yaxud dəfn edildiyi yerə xanəgah, səfərə çıxmış dərvişlərin bir neçə günlük qonaq qaldıqları yerə isə zaviyə deyilir.

İkinci qisim isə xalqdan heç bir əsasla ayrılmamağı qəbul edir, nəzir-niyazla, vəqflə yaşamağı rədd edirdilər. Onlar Tanrıya zikr və riyazatla deyil, eşq və cazibə ilə qovuşmağa inananlar idi. Bunların yollarına "müsəmma yolu" (varlıqların adı) deyilir. Göründüyü kimi, əsma Tanrı adlarını, müsəmma isə o adlara sahib olan, yəni Allah anlamını ifadə edir. Bu baxımdan, müsəmma yolunu seçənlər *"əsma yolunu tutanların çatdıqları son mövqe bizim başladığımız ilk mövqedir deyirlər"* [4, s.17].

Ə.Gölpınarlının böyük türk mütəsəvvifi kimi qəbul olunan Əhməd Yəsəvi ilə bağlı fikirləri də maraq doğurur. O, bir çox türk tədqiqatçılarından fərqli olaraq, Ə.Yəsəvinin türk xalq ədəbiyyatına, o cümlədən böyük mütəfəkkir Y.Əmrəyə təsiri barədə deyilən fikirləri qəbul etmir. Onun Anadoluda bəktaşi ənənəsi yayıldıqdan, təzkirələr Uzun Firdovsi tərəfindən "Vilayətnameyi Hacı Bəktaşi Vəli" adı ilə toplanıb yazıldıqdan sonra, daha dəqiq desək, XV əsrdən etibarən tanındığını bildirir. Tədqiqatçıya görə, Övliya Çələbinin və digər mənbələrin fikirləri də "Vilayətnamə"yə əsaslanır. *"Ə.Yəsəvinin heca ilə yazılmış şeirlərindən Y.Əmrənin təsirlənməsi də həqiqəti əks etdirmir"* [9, s.24-25]. *"Yunus Əmrə Əhməd Yəsəvinin adını belə anmamışdır. XIV-XV əsrlərə dair cünglərdə onun heç bir şeiri yoxdur. Ə.Yəsəvinin "Divani Hikmət" adı ilə çap olunan şeirlərinin arasına "Xalis, Qul Süleyman, Üveysi, Yusif Şəmsəddin, Talibi, Hüveyda, Məşrəb, Şərifi"* təxəllüslü *çağatay şairlərinin şeirləri qarışdığı kimi, "Qul Xacə Əhməd" təxəllüsü ilə verilən şeirlər də şübhəlidir. Çünki bu şəxs Yəsəvidən çox sonra yaşamışdır"* [9, s.106-107].

Ə.Gölpınarlının təsəvvüf ədəbiyyatına marağı, bu sahədə dərin elmi araşdırmalar aparmaqda məqsədi təsəvvüf dövründəki həyat tərzinin davam etdirilməsinin təbliği kimi qəbul edilməməlidir. Alimə görə, bütün bunlar keçmişdə qalıb, onu vacib olan elmi təhlillərə cəlb etmək, gələcək nəsillərə əsl həqiqəti çatdırmaqdır. Bu sahədəki səmimi qənaətini bəzi kitablarında açıq qeyd edir: *"...Bizcə, təriqətlər və təsəvvüf, bu gün bir ürfan zövqüdür; dövrünü yaşamış, tarixə qarışmışdır; son sözümüz də ancaq budur..."* [5, s.297].

Xarakter və düşüncə etibarilə mövləvi olan Ə.Gölpınarlının yaradıcılığında təsəvvüf mövzusunu ayrıca bir mərhələ hesab etmək olar. Onun təsəvvüflə bağlı fikirlərini bu cür ümumiləşdirə bilərik:

- Hər hadisə özündən əvvəlkilərin nəticəsidir və hər nəticə, yeni hadisələrə səbəbdir;
- Dünəni bilməyən, bu günü anlamaz; bu günü anlamayan, sabahı görə bilməz;
- VIII əsrdən islam aləmini təsiri altına almış, yüz illər boyunca həm siyasət, həm elm, həm də sənət baxımından cəmiyyətə təsir etmiş bir inanc və düşüncə sisteminin hərtərəfli, tərəfsiz olaraq tədqiq olunması vacibdir;
- Keçmişdəki hadisələr haqqında ədalətsiz hökm vermək, onların öz dövrlərindəki rollarını düzgün qiymətləndirməmək, tarixi inkar etmək hadisələrin səbəblərinə göz yummaq deməkdir;

- Təsəvvüf tarixi, dini tarixin, dini tarix sosial tarixin bir qoludur və bu qolların öyrənilməsi, bunlara aid tənqidi araşdırmalar aparılması gərəkdir.

Ə.Gölpınarlı "Mövlana Cəlaləddin: həyatı, əsərləri, fəlsəfəsi" adlı kitabında ilahi yolun yolçusu, mütəfəkkir, böyük təsəvvüf şairi Mövlananın həyatı, yaradıcılığı, təsəvvüf görüşləri haqqında ətraflı məlumat verir.

## Nəticə / *Conclusion*

Ə.Gölpınarlının təssəvvüf görüşləri ilə bağlı araşdırmalardan belə qənaətə gəlirik ki, tədqiqatçı bu mövzudakı əsərlərini didaktik bir üslubda yazmış, hadisələri təhlil edərkən elmi olduğu qədər də aydın, düzgün və dəqiq izahata üstünlük vermişdir. Onun hadisə və faktları hərtərəfli anlatması müraciət etdiyi mövzu ilə bağlı zəngin biliyə sahib olması ilə əlaqədardır. Ciddi elmi təhlillərdən sonra belə deyə bilərik ki, tədqiqatçı təsəvvüfün üç aspektdən təhlil edilməsini məqsədəuyğun saymışdır:

1. Nəzəri təsəvvüf. Bu doğrudan-doğruya əxlaq və ruhun müalicəsi qismidir, yəni mənəvi məsələdir ki, zahidlik əsasına dayanır.

2. Təəssüri – ruhi təsəvvüf. Bu eşq və cazibə əsasına dayanmaqdır. Sufi təsəvvürün bu cəbhəsində imanını həyəcanı ilə yaşadır.

3. Ayin və ərkan. Bu, bir təriqətin o biri təriqətlərdən ayrılmasında tək amildir.

Beləliklə, Ə.Gölpınarlının yaradıcılığında təsəvvüfün tədqiqinin əsas yerlərdən birini tutduğunu görürük. O, bu problemləri araşdırarkən doğru yolla getmiş, Türkiyə ədəbiyyatşünaslığında və ümumən türkologiyada öz sözünü demişdir. Bu problemlərlə bağlı araşdırma aparacaq gələcək tədqiqatçıların Ə.Gölpınarlının yaradıcılığından nüfuzlu mənbə kimi istifadə etmələri tədqiq ediləcək problemləri obyektiv təhlil etməyə kömək edə bilər.

## Ədəbiyyat / *References*

1. Akman, Z. Abdülbaki Gölpınarlının hayatı, İslam tarihçiliği ve Hz. Muhammed tasavvuru // The Journal of Academic Social Science (Studies International Journal of Social Science) – JASSS, – Fransa: Volume 6 Issue 1, January 2013.
2. Babayev, Y. Təriqət ədəbiyyatı: sufizm, hürufizm. – Bakı: Nurlan, 2007.
3. Bünyadov, Z. "Dinlər, təriqətlər, məzhəblər". – Bakı: Şərq-Qərb, 2007.
4. Gölpınarlı, A. 100 soruda tasavvüf. – İstanbul: Gül matbaası, 1985. – 198 s.
5. Gölpınarlı, A. 100 soruda Türkiyədə mezhepler ve tarikatlar. – İstanbul: Gerçek yayın evi, 1969. – 304 s.
6. Gölpınarlı, A. Mevlana Celaleddin: hayatı, eserleri, felsefesi. – İstanbul: İnkilap kitapevi, 2010. – 334 s.
7. Gölpınarlı, A. Tasavvuf Meseleleri – Sorular ve Cevaplarla. – İstanbul: Kapı yayınları, 2020. – 206 s.
8. Gölpınarlı, A. Tasavvuftan dilimize geçen deyimler ve atasözleri. – İstanbul: İnkilap Kitabevi, 2005. – 384 s.
9. Gölpınarlı, A. Vilayetname - Manakıbı Hacı Bektaşi Veli. – İstanbul: İnkılap kitabevi, 2016. – 287 s.
10. Hicviri, Keşfül – mahcub. Çevirmen: S. Uludağ. – İstanbul: Dergah yayınları, 2014. – 516 s.
11. Məmmədov, E. Orta əsr İslam fikrində din və fəlsəfə. – Bakı: İdrak, 2019.

## Взгляд на тему суфизма с точки зрения Абдулбаги Голпынарлы

**Насреддин Мусаев**
Доктор философии по филологии
https://orcid.org/0000-0003-1164-2415

**Резюме.** В статье проанализированы взгляды Абдулбаги Голпынарлы, обладающего многогранным творчеством, оригинальным взглядом на литературные и исторические события, уникальной творческой манерой, на суфизм через призму его работ в этой области. Определено, что исследователю удалось проанализировать тему суфизма в контексте новых исследований. Его труды по суфизму считаются турецкими исследователями наиболее достоверными источниками.
В статье также проанализированы причины, побудившие А.Голпынарлы к поискам по суфизму, подтверждено, что его труды по этой теме являются идеальной базой среди исследователей литературы тюркских народов, сделаны определенные выводы о его потенциале как исследователе. На основе исследований Голпынарлы было определено, что суфизм и ирфан не одно и то же, хотя и представляют собой единое учение в рамках определенных границ. Между ними есть определенные различия. Суфизм – это практический аспект этого учения, а ирфан – теоретический аспект. Подобно тому, как каждая наука имеет как эмпирическую, так и теоретическую стороны, так и суфизм в суфизме связан с практической деятельностью, а ирфан – с мышлением и теоретическими аспектами.
**Ключевые слова:** Абдулбаги Голпынарлы, научное и художественное мышление, история суфизма, суфийская литература